UOT 94

**Rövşən Hətəmov,**
***tarix üzrə fəlsəfə doktoru,***
***Bakı Dövlət Universitetinin***
***Avropa və Amerika ölkələrinin yeni və müasir***
***tarixi kafedrasının dosenti,***
***rovshanhatamov@bsu.edu.az***
***ORCID iD: 0000-0002-5853-4617***
**https://doi.org/10.59849/2709-5096.2024.1.70**

# 402-Cİ AZƏRBAYCAN MİLLİ ATICI DİVİZİYASININ QAFQAZIN MÜDAFİƏSİNDƏ İŞTİRAKI

**Annotasiya**

*Məqalədə İkinci Dünya müharibəsi illərində Azərbaycanda təşkil olunmuş 402-ci atıcı diviziyasının tarixinin ən mürəkkəb dövründən – Qafqazın müdafiəsi uğrunda döyüşlər dövründə alman qoşunlarının ağır zərbələri altında darmadağın edilməsindən bəhs edilir. Tədqiqatın qarşısında qoyulmuş əsas vəzifə bu faciənin səbəblərini müəyyən etməklə Azərbaycan xalqının müharibədə iştirakı mövzusunun daha obyektiv araşdırılmasını təmin etməkdir. Mövzunun elmi araşdırılması tarixi həqiqətin ortaya çıxarılması ilə yanaşı, diviziyanın döyüş yoluna obyektiv qiymətin verilməsi baxımından əhəmiyyət kəsb edir. 1942-ci ilin dekabrında diviziyanın ağır itkilərə məruz qalmasında erməni əsilli yüksək rütbəli zabitin rolu nəzərə alınarsa, məsələnin daha dərindən araşdırılmasına ehtiyac vardır.*

*Müharibənin ilk aylarında təşkil olunmuş 402-ci Azərbaycan milli atıcı diviziyası ciddi problemlər ilə qarşılaşmışdı. 1942-ci ilin payızında diviziyanın Qafqazın müdafiəsi uğrunda hərbi əməliyyatlara cəlb olunması ilə hərbi birliyin vəziyyəti daha da ağırlaşdı. Sovet hərbi komandanlığı istər diviziya rəhbərliyinin, istərsə də Azərbaycanın siyasi rəhbərliyinin bütün müraciətlərinə rəğmən azərbaycanlılardan ibarət hərbi birliyin qarşılaşdığı ağır vəziyyətin aradan qaldırılması üçün əsaslı tədbirlər həyata keçirilmədi. Bu isə 402-ci diviziyanın döyüşlərin nəticəsində darmadağın edilməsinə gətirib çıxardı.*

*402-ci diviziya müharibə illərində istər Cənubi Azərbaycanda, istərsə də Şimali Qafqazda şanlı döyüş yolu keçmişdir. Sovet hərbi komandanlığının diviziyanın qarşılaşdığı problemlərə laqeyd yanaşması ilə bərabər diviziyanın komandanlığının səriştəsiz rəhbərliyi son nəticədə azərbaycanlı hərbi qulluqçuların kütləvi məhvinə gətirib çıxardı.*

***Açar sözlər:*** *402-ci atıcı diviziya, Azərbaycan, Qafqaz uğrunda döyüşlər, sovet hərbi komandanlığı, azərbaycanlı döyüşçülər*

**Rovshan Hatamov**

## PARTICIPATION OF THE 402ND AZERBAIJANI NATIONAL RIFLE DIVISION IN THE DEFENSE OF THE CAUCASUS


### Annotation

*The article talks about the most difficult period in the history of the 402nd Rifle Division organized in Azerbaijan during the Second World War-the destruction of German troops under heavy blows during the battles for the defense of the Caucasus. The main task set before the study is to provide a more objective study of the topic of the participation of the Azerbaijani people in the war by identifying the causes of this tragedy. Scientific study of the topic is of great importance in terms of revealing the historical truth, as well as giving an objective assessment of the division's combat path. Given the role of a high-ranking officer of Armenian origin in the division's heavy losses in December 1942, there is a need for a deeper study of the issue.*

*In the first months of the war, the 402nd Azerbaijani National Rifle Division faced serious problems. The situation of the military unit was aggravated by the involvement of the division in military operations for the defense of the Caucasus in the fall of 1942. Despite all the appeals of both the leadership of the division and the political leadership of Azerbaijan, the Soviet military command did not take reasonable measures to eliminate the difficult situation faced by the Azerbaijani military community. This led to the destruction of the 402nd division as a result of the fighting.*

*The 402nd division went through a glorious battle both in South Azerbaijan and in the North Caucasus during the war years. The incompetent leadership of the command of the division, along with the neglect of the Soviet military command of the problems faced by the division, ultimately led to the mass destruction of Azerbaijani military personnel.*


***Keywords:*** *402nd Rifle Division, Azerbaijan, battles for the Caucasus, Soviet military command, Azerbaijani fighters*

### Giriş

Azərbaycan SSR-nin İkinci Dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə çox şaxəli iştirakının mühüm sahələrindən biri milli hərbi birliklərinin yaradılması ilə bağlı idi. Milli hərbi birliklərin yaradılması hərbi-müdafiə tədbiri olmaqla yanaşı həmçinin, respublika əhalisinin əksər hissəsini təşkil edən azərbaycanlıların milli özünüdərk hisslərinin və milli-dövlətçilik ideyasının güclənməsində mühüm rol oynamışdır. Bu səbəbdən də milli hərbi birliklərin yaradılması, onların təminatı və döyüş qabiliyyətlərinin artırılması respublika rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Sovet İttifaqının hakim siyasi-hərbi dairələrində qeyri-slavyan xalqlarının, o cümlədən azərbaycanlıların döyüşkən xalq olmasına şübhə ilə ya-

naşan qüvvələrin iddialarının əsassız olmasını və yaydıqları iftiraların ifşa edilməsi üçün milli hərbi hissələrin üzərinə böyük məsuliyyət düşürdü. Onların şanlı və şərəfli döyüş yolunu keçmələri bəzən hətta siyasi mülahizələrdən də üstün olaraq həyati əhəmiyyətli milli məsələ idi.

402-ci diviziyanın tarixi və döyüş yolu Azərbaycan tarixşünaslığında ayrılıqda geniş tədqiq olunmamışdır. Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı haqqında çap olunmuş elmi ədəbiyyatda diviziya haqqında yalnız bir neçə cümlə ilə kifayətlənilmişdir. Görünür, belə bir vəziyyətinin səbəbi diviziyanın digər Azərbaycan milli hərbi birlikləri kimi müharibənin sonlarını Avropa ölkələrinin ərazisində deyil, Azərbaycanda keçirməsi və təlim hərbi hissəsinə çevrilməsi ilə bağlı olmuşdur. Digər tərəfdən, 1942-ci ilin dekabrında 402-ci diviziyanın döyüşdə darmadağın edilməsi və şəxsi heyətinin əksər hissəsini 416-cı diviziyaya verilməsi də diviziyanın sonrakı taleyinə marağı azaltmışdır.

Tədqiqatın əsas elmi metodu qismində hadisələrin və vəziyyətin inkişafında səbəb-nəticə əlaqələrinin və qanunauyğunluqların müəyyən olunmasına imkan verən tarixi-genetik və ya retrospektiv metoddan istifadə olunmuşdur. Bu metod eyni zamanda təqdim olunan mövzunun ayrı-ayrı aspektlərinin araşdırılması zamanı subyektiv və obyektiv amillərin xüsusiyyətlərini müəyyən etmək imkanı verir.

**Diviziyanın təşkili və döyüş yolunun ilk mərhələsi**

SSRİ Xalq Müdafiə Komissarlığının 1941-ci il avqustun 11-də verdiyi sərəncama əsasən 402-ci Azərbaycan milli diviziyasının Zaqafqaziya Cəbhəsinin (ZC) hüdudlarında yaradılması prosesinin sentyabrın 15-ə kimi başa çatdırılması nəzərdə tutulmuşdu. 1941-ci il avqustun 26-da ZC-nin komandanı 402-ci diviziyanın yaradılması haqqında sərəncamı imzaladıqdan sonra Xankəndində onun əksər hərbi hissələrinin formalaşdırılmasına başlanıldı. Diviziyanın 839-cu atıcı alayı isə 1941-ci il avqustun 20-də Ağdam şəhərində formalaşdırıldı.(1) Diviziya 833-cü atıcı, 839-cu atıcı və 840-cı atıcı, 960-cı artilleriya alaylarından, 184-cü əlahiddə qırıcı-tank əleyhinə diviziondan, 672-ci minomyot divizionundan, 188-ci zenit artilleriya batareyasından 459-cu kəşfiyyat rotasından, 678-ci istehkam batalyonundan və digər hərbi və yardımçı hissələrdən ibarət idi.(2)

1941-ci il avqustun 15-dən 1942-ci il fevralın 22-ə kimi diviziyanın komandiri polkovnik T.İ.Volkoviç, daha sonra 1942-ci il dekabrın 9-na kimi polkovnik Ə.M. Hüseynov, dekabrın 19-a kimi polkovnik D.M.Sızranov olmuşdur. Yenidən formalaşma dövrü keçən və daha sonra təlim diviziyasına çevrilən 402-ci diviziyanın 1944-cü il aprelin 25-ə kimi komandiri polkovnik (16 mart 1943-cü ildən general-mayor) M.T.Karakoz, 1945-ci il martın 13-ə kimi general-mayor T.A.Əliyarbəyov, mayın 9-a kimi isə polkovnik H.M.Zeynalov olmuşlar.

1941-ci ilin sentyabrında diviziyanın şəxsi heyəti 1295 nəfər zabitdən, 1088 nəfər kiçik komandirdən və 8104 nəfər sıravi döyüşçüdən (cəmi -10.487 nəfər) ibarət idi. Diviziyanın şəxsi heyətinin 9400 nəfərini, yəni 90%-ni azərbaycanlılar təşkil edirdi.

1941-ci il oktyabrın 2–10-da diviziyanın hərbi hissələri Xankəndi – Gorus – Naxçıvan marşrutu hərəkət edərək yeni dislokasiya məntəqəsində yerləşdilər.(3)

1941-ci il oktyabrın 3-dən 1942-ci ilin aprelin 15-ə kimi 402-ci diviziyanın ayrı-ayrı hissələri sovet qoşunlarının İrana müdaxilə əməliyyatında iştirak etmişdi. (4) 1941-ci il noyabrın 20-22-də Naxçıvanda 402-ci diviziyanın hissələri arasında döyüş təlimi keçirildi. Təlimdə əsas məqsəd hissələrin marş, qarşılıqlı döyüş, mühafizə və döyüşdən çıxış zamanı taktiki elementlər dərindən mənimsənilməli idi.(5)

1942-ci ilin yanvarında 839-cu alayın şəxsi heyətindən bütün rus, erməni və gürcü millətlərindən olanlar Krım cəbhəsinə göndərildilər. Onların yerinə alaya yalnız azərbaycanlı kontingent gətirildi və onların döyüş hazırlığına başlanıldı.(6) SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı və SSRİ XKS-nin əmri ilə alay 839-cu Azərbaycan atıcı alayı adlandırıldı. 1942-ci ilin fevralında diviziyanın hissələri Ordubad şəhərinə və Qıvraq qəsəbəsinə dislokasiya olundular və 45-ci orduya tabe edildilər.

1942-ci ilin martında 402-ci atıcı diviziyanın şəxsi heyəti hələ tam formalaşmamışdı. Belə ki, siyasi rəhbər heyətinin 55%, kiçik komandir heyətinin 62%, sıravi heyətin isə 8%-i komplektləşdirilməmişdi. Belə vəziyyət diviziyada mənfi halların – intiharlar, fərarilik, antisovet məzmunlu söhbətlərin aparılması, hərbi intizamın kobudcasına pozulması və s., artmasına səbəb olmuşdu.(7) Diviziyada ağır sanitar-gigiyena şəraiti hökm sürürdü. Şəxsi heyətin geyim ilə təminatı da yarıtmaz vəziyyətdə idi. Diviziyaya 5000 hərbi geyim dəsti verilsə də, 4500 dəst çatışmırdı. Diviziyaya ayrılan yanacaq onun tələbatının yalnız 30%-ni təmin edirdi. Şəxsi heyətin qidalanmasında uzun fasilələrin yaranması qidanın hazırlanması üçün odununun və mazutun çatışmaması ilə əlaqədar idi. Diviziyanın bütün hissələrində yataq ləvazimatları çatışmırdı.(8) Diviziyanın hərbi hissələri arasında məsafənin 150-200 km olmasına baxmayaraq ştat üzrə müəyyən olunmuş avtomaşın sayından 99 ədədi çatışmırdı. Diviziyada olanların isə əksəriyyəti ehtiyat hissələrinin olmaması səbəbindən istismar olunmurdu.(9)

402-ci atıcı diviziyasının Azərbaycan milli diviziyası kimi formalaşdırılması haqqında qərara baxmayaraq ZC Qərargahının Formalaşdırma idarəsinin hərbi birlikdə azərbaycanlı hərbi qulluqçuların saylarının məhdudlaşdırılması üçün gördüyü tədbirlər Azərbaycanın siyasi rəhbərliyi tərəfindən kəskin etiraz ilə qarşılanırdı. 1942-ci il fevralın əvvəllərində diviziyaya göndərilmiş 2200 nəfər təlim keçməmiş azərbaycanlı hərbi mükəlləfiyyətlilərin 1200 nəfəri idarənin göstərişi ilə geri qaytarılmış, 700 nəfəri Naxçıvanda saxlanılmış və yalnız 300 nəfəri Cənubi Azərbaycanda yerləşən hərbi hissələrə göndərilmişdi. ZC komandanlığının bəzi təmsilçilərinin azərbaycanlı hərbi qulluqçulara qarşı yaramaz yanaşmalarından hiddətlənən respublikanın rəhbəri M.C.Bağırov 1942-ci il fevralın 22-də ZC komandanlığına kəskin etirazını bildirdi.(10) Bununla yanaşı qeyd etmək lazımdır ki, hərbi çağırış kampaniyasının gedişində rayon hərbi komissarlıqlarının məsələyə qeyri-ciddi yanaşması səbəbindən orduya bəzən hərbi xidmətə yararlı olmayan şəxslər də səfər-

bər olunurdu. 402-ci diviziyanın şəxsi heyətində bu zaman 350 nəfərdən çox belə əsgər var idi.(11)

1942-ci ilin martında milli hərbi hissəyə çevrilməli olan diviziyanın əsas hərbi birliklərinin İranda olması və Türkiyə ilə sərhəddə yerləşdirilməsi səbəbindən Azərbaycan rəhbərliyi onun gündəlik vəziyyəti ilə tanış olmaq və onun ehtiyaclarını təmin etmək imkanında deyildi. Bunu nəzərə alan respublika rəhbərliyi ZC qoşunları komandanına belə bir şəraitdə 402-ci diviziyanın milli diviziyaya çevrilməsinin məqsədəuyğun olmasından narahatlığını bildirdi. Milli diviziyanın təşkili prosesinin daha sürətli və səmərəli aparılması üçün onun ya Azərbaycana, ya da Cənubi Qafqazın digər hər hansı respublikasına göndərilməsi təklif olunurdu.(12) Respublika rəhbərliyini narahat edən digər məsələ diviziyanın silahlanması sahəsində qarşılaşdığı çətinliklər idi. Hərbi Dairənin komandanlığının əmri ilə diviziyanın sərəncamında olan artilleriya vasitələrinin əksəriyyəti və bütün pulemyotları alınaraq digər hərbi hissələrə verilmişdi.(13)

1942-ci ilin aprelin 15-də diviziya Naxçıvan MSSR-də yerləşdirildi. 1942-ci ilin aprelində diviziyada 10.967 nəfər xidmət edirdi. Onlardan 865 nəfəri komandir-rəis heyəti, 10.102 nəfəri serjant və sıravi heyət idi.(14)

1942-ci il sentyabrın 10-da M.C.Bağırov 402-ci diviziyanın komandiri polkovnik Ə.Hüseynova və siyasi rəhbər heyətinin üzvlərinə göndərdiyi məxfi məktubunda diviziyanın döyüş və siyasi hazırlığının yüksəldilməsi üçün gərgin işlərin aparılmasının vacibliyi qeyd edilirdi. Məktubda xüsusilə diqqəti çəkən fikri isə diviziyanın yeni şəraitdə döyüşə atıla bilməsi ehtimalı ilə bağlı idi: "Nəzərə almaq lazımdır ki, müəyyən ehtimalla diviziya təkcə faşist Almaniyası və onun əlaltıları olan rumınlar, italyanlar, macarlar, slovaklar, finlər və digər dövlətlər ilə deyil, həmçinin, başqa bir şəraitdə və başqa bir şərtlər daxilində vuruşmalı olacaqdır. Buna görə də bütövlükdə diviziya, ayrıca hər bir döyüşçü, hər bir siyasi işçi və komandir elə bir ruhda tərbiyə olunmalıdır ki, ərazimizə istənilən düşmən hər hansı istiqamətdən soxulmağa cəhd etdikdə heç bir coğrafi, etnoqrafik və milli cəhətlər onunla amansız mübarizdə döyüşçülərimizin döyüş bacarığını və qətiyyətliliyini sarsıda bilməsin."(15) Fikrimcə, M.C.Bağırov bu dövrdə Türkiyənin Cənubi Qafqaza müdaxiləsi ilə bağlı yayılmış fikirləri nəzərdə tuturdu.

**Qafqazın müdafiəsində diviziyanın iştirakı**

1942-ci ilin sentyabrında ZC-nin komandanının sərəncamı ilə diviziyanın 840-cı alayının döyüş qabiliyyəti yoxlanıldı. Hərbi hissənin döyüş əməliyyatlarına hazırlığı müəyyən olunduqdan sonra 1942-ci il sentyabrın 24-də 44-cü ordu qərargahı tərəfindən diviziyada 3 günlük təlimlər keçirildi. Təlim diviziyanın döyüş və siyasi cəhətdən hazırlıqlığını müəyyən etdi və onun döyüşə qatılması məqsədəuyğun hesab edildi. 1942-ci il oktyabrın 1-də diviziya qərargahının əmri ilə hərbi hissələrin 7 eşelon ilə sutkanın qaranlıq vaxtında Naxçıvan, Şahtaxtı və Ordubad dəmir yol stansiyalarından cəbhəyə yola salınması müəyyən edildi.(16)

Diviziya 1942-ci il oktyabrın 4-də Qudermesdə dislokasiya olundu və ZC-nin 44-cü ordusunun 9-cu atıcı korpusunun tərkibinə daxil edildi.1942-ci ilin oktyabrında 44-cü ordunun komandanlığı 402-ci diviziyaya düşmənin Terek çayını keçməsinə imkan verməmək tapşırığını verdi. Diviziyadan solda 389-cu diviziya, sağda isə 44-cü ordu komandanının operativ tabeliyinə verilmiş 833-cü alay yerləşirdi.(17)

1942-ci ilin oktyabr–noyabr aylarında 402-ci diviziya yerlədiyi müdafiə xəttində istehkamların daha da təkmilləşdirilməsi və hərbi hissələrin döyüş hazırlığı ilə məşğul olurdu. Diviziyanın qarşısında düşmən qüvvələri yerləşməsə də alman hərbi təyyarələri havadan kəşfiyyat məqsədi ilə uçuşlar həyata keçirirdi.(18) Düşmənin aviadesant vasitələrindən istifadə etməsi ehtimalı ilə əlaqədar olaraq zəruri tədbirlər həyata keçirildi, müşahidə məntəqələri quruldu. Düşmən təyyarələri tərəfindən 960-cı artilleriya alayının 2-ci divizionu və 840-cı alayın komanda məntəqəsi atəşə tutulmuşdu.(19)

Alman qoşunlarının komandanlığı qarşı tərəfdə Azərbaycan milli diviziyalarının yerləşməsini nəzərə alaraq onların şəxsi heyətinə qarşı təbliğat tədbirləri həyata keçirirdilər. Düşmən təyyarələri tərəfindən diviziyanın mövqeləri üzərində 3 dəfə vərəqələr atılmışdı. Qeyd etmək lazımdır ki, alman qoşunlarının tərkibində azərbaycanlılardan ibarət batalyon vuruşurdu. Alman komandanlığı radio vasitəsi ilə təbliğatı tanklardan istifadə edərək sovet qoşunlarının mövqelərinin ön xəttinə 200-300 metr yaxınlıqda aparırdı. Bu təbliğat 1942-ci il oktyabrının ortalarından etibarən, yəni Azərbaycan mili diviziyalarının ön xəttə gəlməsindən bir az sonra başlamışdı.(20)

1942-ci il oktyabrında diviziyanın bəzi hissələrində şəxsi heyətin ərzaq ilə təchizatında çatımamazlıqlar müşahidə olunmaqda idi. Diviziya qərargahından 44-cü ordu komandanlığına təqdim olunan məlumatlarda diviziyanın hərbi hissələri arasında rabitənin fasilələr ilə işlədiyi və təchizatın natamam olması qeyd edilirdi.(21) Məsələn, oktyabrın 19-da 840-cı alayda nəqliyyatın, ordu və diviziya anbarlarında isə ərzaq məhsullarının olmaması səbəbindən çörək və bəzi ərzaq məhsulları alınmamışdı. Diviziyanın hissələri ilə rabitə əlaqəsi yarıtmaz vəziyyətdə idi. Avtomobil nəqliyyatı üçün yollar yağmurlu havada yararsız vəziyyətə düşürdü.(22)

Nəqliyyat probleminin həlli ilə əlaqədar diviziyanın komandanlığı Azərbaycanın siyasi rəhbərliyinə bir neçə dəfə müraciət etmişdi. Belə ki, 402-ci diviziya Naxçıvanda dislokasiya olunan zaman tabe edildiyi 45-ci ordunun komandanlığı diviziyaya məxsus 40 avtomobili müvəqqəti ehtiyac üçün aldığını bildirsə də, onları hələ də geri qaytarmamışdı. 1942-ci il noyabrın 30-da diviziyanın komandiri polkovnik Ə.Hüseynov Azərbaycan K(b)P MK katibi M.C.Bağırova müraciətində qeyd edirdi ki, həmin maşınların qaytarılmaması diviziyanın hissələrinin təchizatını son dərəcə çətin vəziyyətdə qoymuşdur.(23) Diviziya komandanlığı həmçinin, respublika rəhbərliyinin milli hərbi birliklərinin ehtiyaclarının təmin edilməsi üçün göstərdiyi səylərini nəzərə alaraq zəruri malların alınmasına ümid edirdi.(24)

402-ci diviziyanın ön xəttə gətirilməsinə baxmayaraq onun idarə olunmasında çatışmamazlıqlar qalmaqda idi. ZC komandanlığı diviziyanın fəaliyyətində yol verilən bir sıra nöqsanları ciddi tənqid edilirdi. Məsələn, 1942-ci ilin oktyabrında ZC qərargahının operativ şöbəsi tərəfindən 402-ci diviziyanın hissələrinin bir döyüş mövqeyindən digərinə yer dəyişərkən əvvəlki mövqeni heç bir hissəyə təhvil vermədiyi və oranın müdafiəsiz qalması halları müəyyən edilmişdi. Digər mənfi hallardan biri isə bəzi hərbi hissələrin komandirlərinin icazəsiz olaraq öz hissələrinin mövqelərindən xeyli uzaqlaşmaları ilə bağlı idi. Xüsusilə, diviziya qərargahının verdiyi öz sərəncamlarının icrasına nəzarət etməməsi, onların aydın olmayan və qeyri-dəqiq formada verilməsi ciddi nöqsan hesab edilirdi. Buna nümunə kimi, 1942-ci ilin oktyabrın 10-da 839-cu alayın yeni mövqeyə keçməsi haqqında verilən əmrin icrasını qeyd etmək olar. Belə ki, alaya Ken-Yurtdan 2 km şərqdə yerləşən kurqanda mövqe tutması əmr edildiyi halda, diviziya qərargahında onun Ken-Yurtdan qərbdə müdafiə xəttində qərar tutması qeyd edilmişdi. ZC komandanlığının məsələyə müdaxiləsindən sonra qeyd edilən ərazinin heç bir hərbi hissə tərəfindən müdafiə olunmadığı aşkar edilmişdi.(25)

Diviziyanın komandanlığı da öz növbəsində 44-cü ordu komandanlığı tərəfindən verilən bəzi göstərişlərin qeyri-dəqiq olması və diviziyanın müraciətlərinin cavabsız qalması ilə bağlı iradlarını bildirirdi. Diviziyanın hissələrinin qərargah ilə rabitə əlaqəsinin qurulmasında ciddi problem yaranmışdı. Bu ilk növbədə diviziyanın nəqliyyat ilə tam təmin edilməməsi və telefon-kabel rotasının olmaması ilə bağlı idi. Diviziya komandanlığı telefon-kabel rotasının geri qaytarılması haqqında məsələni dəfələrlə Ordunun Hərbi Şurası qarşısında qaldırmasına baxmayaraq bu müsbət həllini tapmamışdı. Cəbhəyə gəldikdən sonra diviziya bir neçə dəfə mövqelərini dəyişdiyindən həmin mövqelərdəki mina sahələrinin mühafizəsini həyata keçirməli olmuşdu. Həmin sahələrin mühafizəsi üçün hərbi qüvvədən istifadə edilməsi diviziyanın əsas müdafiə xəttində mövqelərini zəiflədirdi. Ordunun Mühəndis Qoşunlarının rəisinə bununla bağlı edilən müraciətlərə cavab verilmədiyindən diviziya komandanlığı həmin sahələrin mühafizəsini dayandırmalı oldu. Diviziyanın arxa hissə birlikləri nəqliyyatın olmaması səbəbindən əvvəlki mövqelərində qalmışdılar və diviziya komandirinin 20 avtomaşının ayrılması haqqında ordu komandanlığına müraciətinə cavab verilməmişdi. Nəhayət, təcili həll olunması tələb olunan bir sıra xidməti məsələlər barəsində edilən müraciətlərə ordu qərargahı və müvafiq xidmətlər cavab vermirdilər.(26)

**Diviziyanın sovet ordularının Şimali Qafqazda hücum əməliyyatında iştirakı**

Ordu komandanlığının 0258/оп saylı sərəncamı ilə Kuban və Don qvardiya süvari korpusları, 402-ci, 416-cı diviziyalar və 9-cu atıcı korpus noyabrın 30-da Mozdok istiqamətində hücuma keçməli idilər.(27) 402-ci diviziyanın qarşısında qərar tutmuş alman qoşunları 3-cü tank diviziyasına aid idi və onun tərkibinə 394-cü

moto-piyada alayının 3-cü batalyonu, 3-cü motosiklet batalyonu, kəşfiyyat dəstəsi, 6-cı tank alayının iki batalyonu, 75-ci artilleriya alayının iki divizionu, bir artilleriya batareyası ilə gücləndirilmiş azərbaycanlılardan ibarət batalyon daxil idi.

1942-ci il noyabrın 30-da 44-cü ordunun komandanının əmri ilə 402-ci diviziya 114-cü atıcı diviziya, 416-cı Azərbaycan milli diviziyası və 5-ci qvardiya Don qvardiya kazak süvari korpusu ilə birlikdə Şeftovo-Mozdok istiqamətində başlanan ümumi hücuma qoşuldu. Hücum düşmənin Mozdok qruplaşmasının darmadağın edilməsi və dekabrın 12-də Mozdokun azad edilməsi ilə nəticələnməli idi.(28) Lakin hücumun birinci günündə düşmən tərəfindən diviziyanın hissələrinin irəliləməsinə müqavimət göstərilməməsinə baxmayaraq, diviziyanın qarşısına qoyulmuş vəzifələr yerinə yetirilmədi. Hücum sürətinin az olmasının səbəbini diviziya komandanlığı alay komandirlərinin öz birliklərini kifayət qədər səlis və qətiyyətli idarə etmək qabiliyyətində olmamaları, rabitənin zəifliyi, artilleriya vasitələrinin ləng hərəkəti ilə izah edirdi.(29) Hücumun gedişində artilleriya alayının atəş vasitələrinin, döyüş sursatının və ləvazimatın daşınması üçün nəqliyyatın olmaması, alayın radio qurğuları, telefon aparatı, kabel xətləri, müşahidə aparılması üçün optik vasitələr ilə tam təmin olunmaması döyüşlərin nəticələrinə mənfi təsir göstərirdi.(30) Diviziyanın hissələrinin şəxsi heyətindən döyüşdə 57 nəfər həlak olan və yaralanan var idi. Hücumun ilk günündə hərbi hissələrin təchizatının yarıtmaz olduğu üzə çıxdı. 833-cü və 840-cı alaylar dekabrın 1-də çörək ilə təmin olunmamış, 839-cu alay isə yalnız 50% həcmində təmin olunmuşdu. Sursat ilə təchizat da qənaətbəxş deyildi.(31)

402-ci diviziyanın hissələri 1942-ci il dekabrın 1-də yenidən hücuma keçdilər. 840-cı alay sağ cinahda, 839-cu alay mərkəzdə və 833-cü alay sol cinahda irəliləyirdilər. 833-cü alay hücuma başlayan zaman qəfildən sol cinahdan düşmənin tankları və avtomatçıları tərəfindən hücuma məruz qaldı. Gün ərzində alay düşmən ilə döyüş apararaq onun 13 tank hücumunu dəf etdi, düşmənin 17 tankı, 3 zirehli maşını və 100 nəfərə qədər avtomatçısı məhv edildi.(32) Tank əleyhinə silah rotasında əsgər Mirzəyev düşmənin 2 tankını məhv etmişdi. Pulemyotçu Osman Hacıyev yaralanmasına baxmayaraq düşmənin hücumu dəf edilənədək döyüş meydanından geri çəkilməmişdi. Bu döyüşdə fərqləndiklərinə görə 833-cü alayın 75 nəfər əsgər və zabiti orden və medallar ilə təltif olundular.

1942-ci il dekabrın 2-də düşmənin tankları və avtomatçılarının əks hücumlarını dəf edən 833-cü alay günün sonunda Sbornıy məntəqəsində düşmənin tank təmiri bazasını ələ keçirdi. Lakin 833-cü alayın 3-cü batalyonun komandiri kapitan Zahidov düşmən tankları ilə döyüşün gedişində döyüşçülərin bir hissəsi ilə düşmən tərəfə keçdi. 1-ci batalyonun döyüşçülərinin bir hissəsi döyüş meydanından qaçdılar, digər hissəsi isə düşmən tərəfə keçdi.(33) Dekabrın 3-də və 4-də Melnikov yaxınlığında passiv mövqe tutan 840-cı alayın arxa cəbhə təchizatı fəaliyyət göstərmirdi. Alayın şəxsi heyəti 100 nəfərə kimi itki vermişdi.(34)

Dekabrın 4-də diviziyanın hücum cəbhəsi qarşısında düşmənin artilleriya və 30-35 tankı ilə birlikdə 1 piyada batalyonuna qədər qüvvələri ayrı-ayrılıqda müqavimət göstərirdilər.(35) 833-cü alayın hər bir batalyonu gün ərzində düşmənin 7-13 əks hücumunu dəf etməli oldu.(36) Lakin düşmənin 25-30 tankı ilə aparılan ağır döyüşlər 833-cü alayın çoxsaylı itkilərinə səbəb olmuşdu. Alayın 2-ci batalyonu şəxsi heyətinin 2/3-ni, 1-ci batalyon 50%-ni, 3-cü batalyon 70 nəfəri itirmişdi. Alayın şəxsi heyətində itkilərin çox olmasının əsas səbəbi artilleriya vasitələrinin kifayət qədər olmaması ilə bağlı idi.(37)

Dekabrın 5-də düşmən tankları və zirehli maşınları ilə aparılan döyüşlərdə tam olmayan məlumata görə, diviziyanın 146 nəfər hərbi qulluqçusu həlak olmuş, 183 nəfər yaralanmış, 106 nəfər itkin düşmüş və 159 nəfəri düşmən tərəfindən əsir alınmışdı. Yolların bərbad vəziyyətdə olması səbəbindən 839-cu və 840-cı alaylara sursat və ərzağın gətirilməsi mümkün deyildi.(38)

Dekabrın 6-da 840-cı alay 123 saylı yüksəklikdə, 833-cü alay 115,6 saylı yüksəklikdə, 839-cu alay isə 123 saylı yüksəklikdən 3 km şərqdə mövqe tutmuşdu.(39) Həmin günün sonuna doğru 839-cu alay və 840-cı alayın 3-cü batalyonu Kreçetovdan 3-4 km cənub-şərqdə düşmən tankları ilə döyüşdə darmadağın edildi. Şəxsi heyətinin bir hissəsi döyüş meydanından qaçmış, bir hissəsi isə əsir alınmışdı. 839-cu alay döyüş vahidi kimi artıq mövcud deyildi.(40)

402-ci diviziyasının 839-cu alayının bu faciəsində onun erməni əsilli komandiri mayor İ.M.Tarayevin xəyanətkarlığı həlledici rol oynamışdır. Belə ki, hələ dekabrın 1-də Tarayev 402-ci diviziya qərargahının əmri ilə Naydenovskoe kəndi istiqamətində hücum edərək son hədəf kimi 123 saylı yüksəkliyi ələ keçirməli idi. Lakin Tarayev alayın batalyonlarının idarə olunmasını təmin edə bilmədi və 123 saylı yüksəklik ələ keçirilmədi. Düşmənin tank hücumuna məruz qalan 1-ci və 3-cü batalyonlar 500 nəfərlik şəxsi heyətdən 350 nəfərini itirdilər. Dekabrın 2-də 402-ci diviziya qərargahının əmri ilə 839-cu atıcı alaya 840-cı və 833-cü atıcı alaylar ilə birlikdə Potixonin kəndini ələ keçirdikdən sonra İvanov kəndi istiqamətində hücuma keçməsi tapşırılmışdı.(41) Hücumun gedişində 839-cu alayın komandiri özbaşına olaraq tabeliyində olan batalyonların komandirlərinə hücumun istiqamətini dəyişərək Melnikov xutorundan 4 km cənub-şərqdə yerləşən 101 saylı yüksəkliyi ələ keçirmək barəsində əmr verdi. Bu əmrin icra edilməsinə başlanılması ilə 840-cı alayın əsas hücum istiqaməti olan 123 saylı yüksəklikdən sağa doğru sıxışdırılması və onun da 101 saylı yüksəkliyə hücum etməyə vadar edilməsi ilə nəticələndi. Qərargahın müəyyən etmiş olduğu əmrin icrasından yayınma nəticəsində 839-cü alay ilə Sbornıy xutoruna hücum edən 833-cü alay arasında 17-18 km zolağında boşluq yarandı. Alman qoşunlarının komandanlığı bu vəziyyətdən istifadə edərək 18 ədəd tank və digər zirehli maşınlarla buradan 833-cü atıcı alayın arxasına keçə bildilər, 833-cü atıcı və 960-cı artilleriya alaylarına basqın etdilər. İlk əvvəl alman

tanklarının və zirehli maşınlarının bir hissəsi məhv edildi və onlar geri çəkildilər. Lakin düşmən qüvvələrinin qəfil basqını və 960-cı artilleriya alayının komandanlığının qorxaqlıq göstərərək döyüş meydanından qaçması səbəbindən alman qoşunları alayın qərargahını, 1-ci divizionun 2-ci artilleriya və qərargah batareyasını məhv etdikdən sonra artilleriya və pulemyot atəşləri ilə, həmçinin zirehli maşınların tırtılları ilə Naydenovskaya Roşa və Sbornıy rayonunda 833-cü atıcı alayın 1-ci və 3-cü batalyonların tank əleyhinə vasitələrinin və şəxsi heyətinin əsas hissəsini məhv edərək 90 nəfərə kimi döyüşçünü əsir aldı.(42)

839-cu və 840-cı alayların birləşərək cəbhə xəttindən sağa doğru uzaqlaşmaları səbəbindən diviziya qərargahı ilə əlaqələri kəsildi. Onlar yenidən alman tanklarının hücumlarına məruz qaldılar və 2 gün ərzində müqavimət göstərdilər. Hərbi hissələrindən ayrı düşmüş Tarayev diviziyanın qərargahını aldadaraq döyüşçülər düşmənlə vuruşduqları zaman guya həmin hissələrin tamamilə məhv edilmələri haqqında yalan məlumatlar vermişdi. Diviziya komandanlığı vəziyyəti araşdırdıqdan sonra 839-cü alayın 1-ci batalyonunun 840-cı alayda olması, pulemyot rotası, minomyot rotası və döyüşçülərin ayrı-ayrı qruplarının manqa və bölük halında 833-cü alaya gəldikləri müəyyən olundu. 402-ci diviziyanın komandanlığı 44-cü ordu komandanına müraciət edərək Tarayevin yalan məlumatlar verməklə özünün bacarıqsızlığını və alayı idarə edə bilməməsini pərdələmək istəməsini əsas gətirərək onun alayın komandanlığından kənarlaşdırılmasını və onun hərbi tribunalın mühakiməsinə verilməsini xahiş etdi.(43) Tarayevin istintaqı gedişində müəyyən olundu ki, 839-cu və 840-cı alayların döyüşçülərindən yalnız 800 nəfərin mühasirədən çıxması mümkün olmuşdur.(44)

Tarayevin ilkin istintaqı zamanı məlum oldu ki, o, əvvəllər Daşnaksutyun Partiyasının üzvü olmuşdur. Almaniya ilə müharibənin başlanmasının ilk dövrlərində o, hərbi xidmət keçdiyi Naxçıvan qarnizonunun komandirləri ilə söhbətlərində Bakının yaxşı müdafiə olunmadığı üçün alman qoşunları tərəfindən işğal olunacağını bildirmişdi.(45) Tarayev həbs olunarkən onun cibindən 1919-cu il yanvarın 11-də Kutaisi quberniyası komissarı tərəfindən verilmiş buraxılış vərəqəsi aşkar edilmişdi. Vərəqədə qeyd edilmişdi: "Mənim tərəfimdən azad edilmiş hərbi əsirə, erməni Tarayevə ondan ötrü verilir ki, o, sərbəst Tiflisə gedə bilər".(46)

1942-ci ilin dekabrında, xüsusilə, dekabrın 4-də və 7-də aparılan döyüşlər zamanı 402-ci diviziyanın komandir-rəis heyətindən 81 nəfər itkin düşmüşdü.(47) Dekabrın 7-də 839-cu və 840-cı alaylar artıq döyüş vahidi kimi mövcud deyildilər. 839-cu alayın şəxsi heyətindən sağ qalmış 350 nəfər, 840-cı alayın şəxsi heyətindən isə 270 nəfər Melnikov kəndi yaxınlığında müdafiə olunurdular. 840-cı alayda ərzaq və döyüş sursatı yox idi. Onlara ərzaq məhsulları və döyüş sursatı ilə göndərilmiş 5 avtomaşın Melnikovdan 123,0 saylı yüksəkliyə doğru irəliləməyə cəhd etsələr də düşmən tankları tərəfindən qarşısı alınmış, bir avtomaşın isə düşmən tərəfindən ələ keçirilmişdi.(48)

Dekabrın 8-də 839-cu və 840-cı alayların şəxsi heyətindən qalan döyüşçülər diviziyanın komanda məntəqəsinə gətirilərək yenidən nizama salınırdılar.(49) Onlardan 1-2 batalyon təşkil edilərək müdafiə xəttinə göndərildilər. Dekabrın 10-da diviziyanın hissələri yenidən hücuma keçdilər. 840-cı alay geri çəkilən düşməni qərb istiqamətində təqib etmək əmrini almışdı.(50) 833-cü alay və onunla birlikdə hücumda iştirak edən birliklər isə ələ keçirdikləri məntəqələri ertəsi gün tərk etməli oldular. Alaylar Sbornıy məntəqəsi ətrafına çəkilmişdilər. (51)

Çox saylı itkilərə baxmayaraq 402-ci diviziyanın hissələri 1942-ci il noyabrın 30-dan dekabrın 11-ə kimi gərgin və şiddətli döyüşlərdən sonra Otraşnikovo, Staro-Buxirovo, Şirkutovskoe, Xoxlatskiy, Smirnovka, Poti-Onin, Sbornıy və Naydenovskiy yaşayış məntəqələrini düşməndən azad etmişdilər. Dekabrın 12-də diviziya Mozdokun azad edilməsində də iştirak etdi.

402-ci diviziya döyüşlərdə sıravi və komandir heyətinin, silahların və əmlakın xeyli hissəsini itirdiyinə görə artıq cəbhənin hər-hansı sahəsini müdafiə edə biləcək döyüş qabiliyyətli hərbi birlik deyildi. Faktiki olaraq 840-cı və 839-cu alaylar tamamilə darmadağın edilmişdi, artilleriya alayı isə sarsıdılmışdı. Tam olmayan məlumatlara görə, diviziya döyüşlərdə 5049 nəfər itirmişdi. Onlardan 3458 nəfəri sıravi, 1179 nəfəri kiçik komandir, 412 nəfəri isə rəhbər heyətdən idi.(52) Bunlardan 1891 nəfəri həlak olmuş, 66 nəfəri xəstəlikdən vəfat etmiş, 853 nəfəri yaralanmış, 726 əsir düşmüş, 1513 nəfəri isə itkin düşmüşdü.(53) Bu zaman diviziyada cəmi 439 nəfər şəxsi heyət qalmışdı. Dekabrın 14-də diviziyanın ayrı-ayrı hissələrinin buraxılmasından sonra şəxsi heyətdən cəmi 296 nəfər qalmışdı. Bundan başqa, Sbornıy məntəqəsində diviziyanın ixtiyarında 40 avto-maşın həcmində əmlak, sursat və digər ləvazimat qalmışdı.(54) Diviziyanın şəxsi heyəti və silahları əsasən 416-cı diviziyanın, silahların bir hissəsi isə 223-cü diviziyanın komplekləşdirilməsi üçün təhvil verildi.

1942-ci il dekabrın 17-də ZC qoşunlarının Şimal Qrupunu komandanlığının əmri ilə 402-ci diviziyanın döyüşən ordunun tərkibindən çıxarılaraq yenidən təşkil olunması və komplektləşdirilməsi üçün Qroznı şəhərinə göndərilməsi qərara alındı. Dekabrın 20-də 402-ci diviziyanın, onun alaylarının və batalyonlarının qərargahları (cəmi 91 nəfər) Qroznı şəhərinə getdi.(55)

402-ci diviziyanın 1942-ci ilin dekabrında hərbi cəhətdən darmadağın edilməsi səbəbləri 44-cü ordu komandanlığı, ZC və ZC Qoşunlarının Şimal Qrupunun Hərbi Şuraları tərəfindən əsaslı araşdırıldı. Döyüş zamanı diviziyanın hissələrinin tapşırığı yerinə yetirmələri üçün kifayət qədər təlim keçmədikləri və komandirlərin şəxsi heyəti idarə edə bilmədikləri aşkar olundu. Ordunun HŞ-nın və Qərargahının diviziyanın hissələrində vəziyyət haqqında aldığı yanlış məlumat nəticəsində diviziyaya vaxtında yardım göstərilməsi mümkün olmamışdı. Düşmən diviziyanın zəifliyindən istifadə edərək onu hissə-hissə darmadağın etmişdi. Diviziyanın təsərrüfat hissələri yarıtmaz fəaliyyət göstərdiklərindən, hərbi hissələr əsas ərzaq məhsulları üzrə fasilələrlə təchiz edilmişdilər.(56)

Döyüş zamanı diviziyanın hissələrinin idarəçiliyini təmin etməyi bacarmayan, tam fəaliyyətsizlik göstərən və ordu qərargahına yalan məlumat verməklə onu çaşdıran diviziyanın komandiri polkovnik Ə.Hüseynov, qoşunların idarəçiliyini və onlar ilə əlaqəni tamamilə təmin etməyən, qərargah rəisi Mazurin, hərbi hissənin qüsurları ilə bağlı vaxtında məlumat vermədiyi və nüfuza malik olmadığı üçün diviziyanın komissarı İsmayılov vəzifələrindən kənarlaşdırıldılar.(57) Diviziyanın komandiri vəzifəsinə erməni əsilli polkovnik M.T.Karakoz təyin edildi.

44-cü Ordunun Hərbi Şurasının OK/0612 saylı əmri ilə polkovnik Ə.Hüseynov və onun təchizat üzrə müavini II dərəcəli intendant Sambrovski hərbi tribunalın mühakiməsinə verildilər. Hərbi tribunal polkovnik Ə.Hüseynovu 1942-ci il noyabrın 20-dən dekabrın 5-ə kimi gedən döyüşlərdə diviziyanın hərbi hissələri ilə əlaqəni itirməsi və döyüş şəraitindən xəbərdar olmaması səbəbindən şəxsi heyətdə çoxlu sayda itkilərin olmasında, Sambrovskini isə diviziyanı ərzaq, yem və döyüş sursatı ilə lazımi səviyyədə təchiz etməməkdə ittiham edirdi. ZC komandanlığı 402-ci diviziyanın qərargah rəisi podpolkovnik Mazurinin də mühakimə olunmasını zəruri hesab etdi. İstintaq materialları 1943-cü il yanvarın 20-də ZC-nin Hərbi Prokurorluğuna təqdim edildi. ZC-nin Hərbi Prokuroru Petrovski yanvarın 27-də bildirdi ki, istintaq materialları ilə ilkin tanışlıqdan sonra göstərilən şəxslərə qarşı cinayət işinin qaldırılmasına əsas olduğu qənaətində gəlsə də, istintaq tədbirləri birtərəfli qaydada aparılmışdır. Belə ki, 402-ci diviziyanın şəxsi heyətinin döyüşə hazırlığı və hərbi hissənin döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olması ilə bağlı məsələlərin araşdırılması üçün 44-cü ordunun komandanlığının nümayəndələri istintaqa cəlb olunmamışdılar. Döyüşlərdən əvvəl diviziyanın ərzaq, yem və hərbi sursat ilə təmin olunmamasının səbəbi onlardan soruşulmalı idi. Ordu komandanlığının döyüş tapşırıqlarının diviziya tərəfindən uğurla yerinə yetirməsi üçün hansı tədbirlər həyata keçirdiyi araşdırılmalı idi. Hərbi prokuror hesab edirdi ki, azərbaycanlı döyüşçülərin könüllü əsir düşmələri haqqında komandanlıqda təmsil olunmuş bəzi zabitlərin fikirlərinin əsasızlığı döyüşlərdə azərbaycanlıların qəhrəmanlıqla vuruşması haqqında şahidlərin ifadələri ilə təsdiqini tapmışdır. Buna görə də o, döyüşçülərin hansı şəraitdə əsir düşmələrinin konkret araşdırılmasının vacibiyini qeyd edir və istintaqa hərbi ekspertlərin cəlb olunmasını təklif edirdi.(58)

Azərbaycanın siyasi rəhbərliyi diviziyada baş verən hadisələr barəsində sovet hərbi dairələrində yayılan xoşagəlməz rəylərdən narahat olaraq məsələni daha ətraflı və dolğun araşdırılmasına qərar verdi. Bu məqsədilə M.C.Bağırov 1943-cü il yanvarın 11-də Krasnodar diyarının Yeysk rayonundakı Sovetski qəsəbəsində 44-cü ordunun xüsusi şöbəsinin rəisi kapitan Yefimenko ilə görüşdü. Müzakirə əsnasında Yefimenko 402-ci diviziyanın bir batalyonunun döyüşdə almanlara könüllü əsir düşmələri ilə bağlı yayılan məlumatın yanlış olduğunu bildirdi. Alayların birində 16 nəfərin guya almanlara əsir düşdükləri iddia edilsə də əslində onlar döyüşdə qəhrəmanlıqla vuruşmuş, 12 nəfəri həlak olmuş və yalnız 4 nəfəri yaralı

halda alman qoşunları tərəfindən əsir alınmışdı.(59) Döyüş zamanı 320-ci, 402-ci, 409-cu və 416-cı milli diviziyaların döyüşçülərinin guya əməliyyat meydanından qaçmalarının qarşısını almaq məqsədilə aviasiya və tanklardan istifadə olunması haqqında yayılmış fikirlərin də böhtan xarakterli olması müəyyən edildi.(60) Respublikanın rəhbərliyi əldə etdiyi məlumatlara istinad edərək ZC və ZC qoşunlarının Şimal qrupunun komandanlıqlarından 402-ci diviziya ətrafında aparılan yaramaz təbliğata son qoyulmasını və diviziyanın ağır itkilər verməsinin səbəbkarlarının sərt şəkildə cəzalandırılmasını tələb etdi. Azərbaycan rəhbərliyi hesab edirdi ki, hərbi komandanlığın ayrı-ayrı təmsilçiləri özlərinin bacarıqsızlıqlarını pərdələmək üçün ənənəvi olaraq yenə də bütün günahı milli hərbi hissələrin şəxsi heyətinin üzərinə atmaqla məsuliyyətdən yayınmağa çalışırlar.

M.C.Bağırov ZC-nin Hərbi Şurasının üzvü qismində sovet hərbi komandanlığında 402-ci diviziyaya qarşı aparılan təxribat xarakterli fəaliyyətin zərərsizləşdirilməsinə nail oldu. 402-ci atıcı diviziya ləğv olunmadı və onun yenidən komplektləşdirilməsi qərara alındı. 1943-cü ilin payızına doğru diviziya yenidən döyüş qabiliyyətli milli hərbi birliyə çevrildi. Lakin ehtimal etmək olar ki, respublika rəhbərliyi sovet hərbi dairələrində diviziyaya qarşı məkrli niyyətin ola biləcəyindən ehtiyat edərək onun cəbhəyə göndərilməsinə imkan vermədi. Bu məqsədlə cəbhədə vuruşan Azərbaycan milli hissələri üçün təlim keçmiş döyüşçülərin hazırlanmasında yaranmış çətinliklərdən istifadə olundu. Belə ki, 1943-cü ilin iyunundan etibarən 402-ci diviziyanın alayları şəxsi heyətinin bir hissəsini 416-cı Azərbaycan milli atıcı diviziyasına göndərir və əvəzində respublikanın hərbi komissarlığının göndərdiyi yeni hərbi mükəlləfiyyətli kontingentinin təlimini təşkil edirdi. Bununla da 402-ci diviziya milli xüsusiyyətini qoruyub saxlayaraq döyüş hərbi hissəsindən təlim hərbi birliyinə çevrildi. ZC qoşunlarının komandanlığının göstərişi ilə 1944-cü ilin yazından etibarən 402-ci diviziyada xidmət keçən erməni və gürcü millətlərindən olan döyüşçülər cəbhənin müvafiq milli hərbi hissələrinə göndərilir, onların əvəzinə isə digər hərbi hissələrdə xidmət edən azərbaycanlılar bu diviziyaya gətirilirdi.(61) Diviziyanın hissələri 1945-ci ilin yayında Azərbaycanın hüdudlarında dislokasiya olunmuşdular.

**Nəticə**

1941-1945-ci illərdə Azərbaycan xalqı dünyanı əsarət altına almağa çalışan nasist Almaniyasına və onun əlaltılarına qarşı bəşəriyyətin mütərəqqi qüvvələri ilə bir sırada bütün imkanları daxilində var qüvvəsi ilə mübarizə aparmışdır. Azərbaycan milli hərbi birliklərinin təşkili və onların döyüşlərə qatılması bu mübarizənin ən parlaq səhifələrindən biridir. 402-ci atıcı diviziya Azərbaycan hüdudlarında və əsasən azərbaycanlılardan təşkil olunmuşdu. Onun ehtiyaclarının təmin edilməsi Azərbaycan rəhbərliyinin daim diqqət mərkəzində idi. Fəal döyüş əməliyyatları aparmasa da, diviziyanın hərbi əməliyyatlarda ilk iştirakı sovet qoşunlarının İrana

müdaxiləsi ilə bağlı olmuşdur. 1942-ci ilin sentyabrından etibarən Qafqazın müdafiəsinə qoşulan diviziya ciddi çətinliklər ilə üzləşmişdi. Onların aradan qaldırılmaması sonradan döyüşlərin gedişində ağır nəticələrə gətirib çıxardı. Lakin bu vəziyyətin yaranmasında ZC Qoşunlarının Şimal Qrupu və 44-cü ordu komandanlıqlarının da məsuliyyətləri danılmaz faktdır. 402-ci diviziyanın şəxsi heyəti ağır vəziyyətə rəğmən aparılan döyüşlərdə qəhrəmanlıqla və rəşadətlə vuruşmuş, düşmənə ağır zərbələr endirmişlər. 1942-ci ilin dekabrın əvvəllərində 402-ci diviziyanın döyüşlərdə darmadağın edilməsində komandanlığın bəzi nümayəndələrinin kobud səhvləri, döyüşü idarə etmək bacarığında olmamaları ilə yanaşı erməni əsilli alay komandirinin cinayətkar hərəkəti həlledici rol oynadı. Qarşısındakı alman qüvvələrinin sayca az olmasına baxmayaraq 402-ci diviziyanın döyüşçüləri mühasirəyə alınaraq xeyli itkilər verməli oldular. Qafqaz uğrunda döyüşlərin sonrakı gedişində də ZC qoşunlarının Şimal Qrupunun komandanlığı bir çox hallarda öz bacarıqsızlığı səbəbindən aparılan əməliyyatlarda uğursuzluğunun günahını milli diviziyaların üzərinə atmağa cəhd edirdi. Lakin respublikanın rəhbəri M.C.Bağırovun məsələyə müdaxilə etməsindən sonra ZC komandanlığı sovet hərbi hissələrində milli döyüşçülərə qarşı şovinist və təhqiramiz davranış hallarına qarşı sərt tədbirlər görmək məcburiyyətində qaldı.

**İstifadə edilmiş ədəbiyyat**


1. Боевая характеристика 839 сп 402 сд: 15.11.1944 г./Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi (bundan sonra RF MNMA), fond 1726, siyahı 0000001, iş 0007, vərəq 26.
2. https://bdsa.ru/(07.09.2020) 402-я азербайджанская стрелковая дивизия./strelkovie-divizii/402-strelkovaya-diviziya.html
3. Боевой приказ штаба 402 сд / RF MNMA, fond 1726, siyahı 0000001, iş 0004, vərəq 1-4.
4. Боевая характеристика 833 сп 402 сд./ RF MNMA, fond 47, siyahı1063, iş 603, vərəq 169
5. Указания по ПВО 402 сд на период совершения марша Степанакерт-Нахичевань/RF MNMA, fond 1726, siyahı 0000001, iş 0004, vərəq 36.
6. Боевая характеристика 839 сп 402 сд. 15.09.1943 г. /RF MNMA, fond 47, siyahı 1063, iş 603, vərəq 170
7. Докладная записка зав сектором отдела кадров ЦК КП(б) Азербайджана Айдынбекова о ходе формирования 402 Стрелковой Азербайджанской Дивизии. 16 марта 1942 года. /Azərbaycan Respublikası Prezidenti İctimai-siyasi sənədlər arxivi (bundan sonra ARPİİ İSSA), fond.1, siyahı 27, iş 287, vərəq 144
8. Докладная записка зав сектором отдела кадров ЦК КП(б) Азербайджана Айдынбекова о ходе формирования 402 Стрелковой Азербайджанской Дивизии. 16 марта 1942 года./ARPİİ İSSA, fond 1,siyahı 27, iş 287, vərəq 145

9. Докладная записка зав сектором отдела кадров ЦК КП(б) Азербайджана Айдынбекова о ходе формирования 402 Стрелковой Азербайджанской Дивизии. 16 марта 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 287, vərəq 146

10. Телеграмма секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова командующему ЗАКВО генералу армии Тюленеву. 22 февраля 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 287, vərəq 126

11. Постановление Военного Совета закавказского Военного Округа № 0014 от 21 апреля 1942 года «О санитарном состоянии, заболеваемости и смертности в 28-й Запасной Стрелковой бригаде». /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 48, vərəq 51

12. Письмо секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова ком. войсками ЗакВО генералу армии Тюленеву. 17 марта 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 346, vərəq 177

13. Письмо секретаря ЦК КП (б) Азербайджана М.Д.Багирова командующему Закфронтом генералу армии тов. Тюленеву. 5 мая 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 26, iş 335, vərəq 61

14. План-соображения по расквартированию 402 сд. 06.04.1942 г./RF MNMA, fond 47, siyahı 1063, iş 42, vərəq 65-66

15. Письмо секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова Гусейнову, Исмайилову, Мирзаханову, Наджафову. 10 сентября 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 347, vərəq 14

16. Боевой приказ штаба 402 сд: 01.10.1942 г./RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 80

17. Оперативная сводка штаба 402 сд : 06.10.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 138

18. Оперативная сводка штаба 402 сд : 06.10.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 143

19. Боевое донесение штаба 402 сд: 24.10.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 174

20. За последнее время отмечались случаи трансляции противником в ночное время провокационных радиопередач. Заместитель командира дивизии - начальник артиллерии приказал. 20.10.1942/RF MNMA, fond1726, siyahı 0000001, iş 0084, vərəq 10.

21. Оперативная сводка штаба 402 сд. 26.11.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 202, 203, 206, 211, 214-216, 218, 221-223, 225-232, 234-236, 238-243.

22. Отчет о характере боевых действий частей 402 сд в октябре 1942 года. 31.10.1942 г. /RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 126

23. Еще раз обращаюсь к Вам по вопросу 40 автомашин, в свое время изъятых у нас 45 А и до настоящего времени еще не возвращенных. 30.10.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 122

24. Прошу Вас сделать соответствующее распоряжение Наркомторгу об отпуске за наличный расчет для частей вверенной мне дивизии крайне необходимых предметов по прилагаемому при сем перечню. 30.10.1942 г. /RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 123
25. Поверкой командиром оперативного отдела штаба ЗакФ в частях 402 сд 44 А установлено. 21.10.1942 г./RF MNMA, fond 47, siyahı 1063, iş 64, vərəq 138-138a
26. Прошу дать указания по следующим вопросам./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 134
27. Журнал боевых действий войск ЗакФ. 30.11.1942 г./RF MNMA, fond 47, siyahı 1063, iş 4, vərəq 1
28. Спецсообщение начальника ОО НКВД СГВ ЗКФ майора государственной безопасности Белкина секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 1 января 1943 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 39
29. Частный боевой приказ штаба 402 сд: 01.12.1942 г./RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 96
30. Отчет о боевой деятельности артиллерии 402 сд. 11.12.1942 г./RF MNMA, fond 1726, siyahı 0000001, iş 0084, vərəq 64
31. Оперативная сводка штаба 402 сд. 01.12.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 245
32. Боевая характеристика 482 омедсб 402 сд. 04.11.1944 г./RF MNMA, fond 1726, siyahı 0000001, iş 0007, vərəq 9
33. Личной проверкой частей 402 сд установил./RF MNMA, fond 399, siyahı 9385, iş 99, vərəq 310-311
34. Личной проверкой частей 402 сд установил./RF MNMA, fond 399, siyahı 9385, iş 99, vərəq 309-309 a
35. Боевое донесение штаба 402 сд. 04.12.1942 г./RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 254
36. Боевая характеристика 482 омедсб 402 сд. 04.11.1944 г./ RF MNMA, fond 1726, siyahı 0000001, iş 0007, vərəq 9
37. Личной проверкой частей 402 сд установил./ RF MNMA, fond 399, siyahı 9385, iş 99, vərəq 311-311 a
38. Оперативная сводка штаба 402 сд : 05.12.1942 г. / RF MNMA, fond 1726, siyahı1, iş 9, vərəq 255
39. Боевое донесение штаба 402 сд: 06.12.1942 г./RF MNMA, fond 1726, siyahı1, iş 9, vərəq 257
40. Оперативная сводка штаба 402 сд: 06.12.1942 г./ RF MNMA, fond 1726, siyahı1, iş 9, vərəq 258
41. Спецсообщение начальника ОО НКВД СГВ ЗКФ майора государственной безопасности Белкина секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 1 января 1943 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 39.

42. Докладная записка нач. ОО 44 Армии Ефременко по делу бывшего командира 839 СП 402 СД подполковника Тараева И.М. 2 января 1943 года. / ARPİİ İSSA, fond 1, siyahı 28, iş 135, vərəq 1-3

43. По донесению командира 839 сп 1 батальон без одной роты и 3 батальон взяты в плен противником. 02.12.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 248

44. Спецсообщение начальника ОО НКВД СГВ ЗКФ майора государственной безопасности Белкина секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 1 января 1943 года./ ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 39 arxa.

45. Спецсообщение начальника ОО НКВД СГВ ЗКФ майора государственной безопасности Белкина секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 1 января 1943 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 40

46. Выписка из приказа Главного Управления Формирования и Укомплектования войск Красной Армии № 0222/пр от 17 февраля 1943 года. Об исключении из списков Красной Армии начальствующего состава, пропавший без вести в боях против немецко-фашистских войск./ARPİİ İSSA, fond 1, siyahı 28, iş 606.vərəq 37-45

47. Оперативная информация. 07.12.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 264

48. Боевое донесение штаба 402 сд. 08.12.1942 г. /RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 260

49. Боевое донесение штаба 402 сд.10.12.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 270-270[a]

50. Оперативная сводка штаба 402 сд: 11.12.1942 г./RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 266

51. Письмо генерал-майора Уранова секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 25 декабря 1942 года. /ARPİİ SSA, fond 1, siyahı 27, iş 45, vərəq 28

52. Письмо генерал-майора Уранова секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 25 декабря 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 29

53. Боевое донесение штаба 402 сд. 14.12.1942 г. / RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 272

54. Боевое донесение штаба 402 сд. 20.12.1942 г./ RF MNMA, fond 1726, siyahı 1, iş 9, vərəq 269

55. Письмо генерал-майора Уранова секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 25 декабря 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 30

56. Письмо генерал-майора Уранова секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д. от 25 декабря 1942 года. /ARPİİ İSSA, fond 1, siyahı 27, iş 45, vərəq 30

57. Письмо военного прокурора Закфронта див.воен.юрист Петровского секретарю ЦК КП(б) Азербайджана и члену ВС Закфронта М.Д.Багирову. 27 января 1943 года. /ARPİİ SSA, fond1, siyahı28, iş 178, vərəq 274

58. Запись беседы члена Военного Совета Закфронта тов. Багирова с начальником Особого Отдела 44-й армии капитаном госбезопасности т. Ефименко, состоявшейся 11 января 1943 года в поселке Советский. /ARPİİ SSA, fond 1, siyahı 28, iş 48, vərəq 4-5

59. Запись беседы члена Военного Совета Закфронта тов. Багирова с начальником Особого Отдела 44-й армии капитаном госбезопасности т. Ефименко, состоявшейся 11 января 1943 года в поселке Советский. /ARPİİ SSA, fond 1, siyahı 28, iş 48, vərəq 6

60. Письмо секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова члену ВС Закфронта генерал-майору Ефимову. 1944 г. /ARPİİ SSA, fond 1, siyahı 29, iş 682, vərəq 22

61. Постановление бюро ЦК КП(б) Азербайджан от 29 июля 1944 года «О дальнейшем усилении партийно-политической работы и улучшении бытовых условий личного состава 402 стр. Дивизии, расположенной на территории Азербайджанской ССР». Выписка из протокола № 383 заседания бюро ЦК КП(б) Азербайджана от 29 июля 1944 года. Пункт 6./ARPİİ SSA, fond 1, siyahı 29, iş 25, vərəq 281-283